# Qəbələ yeni yüksəliş mərhələsində

## 2017-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat məruzəsi

*Qəbələ Azərbaycanın qədim torpağıdır. Hələ eramızdan əvvəl müxtəlif yazılı mənbələrdə Qəbələnin adı çəkilir. Dünya tarixində Qəbələnin özünə məxsus yeri vardır. Bu, bizim böyük sərvətimizdir. Biz öz tarixi irsimizə həmişə böyük hörmət və diqqətlə yanaşmalıyıq. Bu baxımdan, Azərbaycan tarixində, Azərbaycanın keçmişində və bu günündə Qəbələnin rolu çox mühüm və önəmlidir.*

***İlham ƏLİYEV.***

(Əvvəli 1-ci səhifədə).

Nazirlər Kabinetinin iclasındakı giriş nitqində ölkə başçısı Azərbaycan iqtisadiyyatına 14,6 milyard dollar sərmayə qoyulduğunu, ixrac məhsullarının 19 faiz, qeyri-neft ixracının isə 24 faiz artdığını qeyd etmişdir. İdxalın sabit səviyyədə qalmasını böyük nəticə kimi dəyərləndirən cənab Prezident vurğulamışdır ki, hər bir ölkə belə nəticələrlə fəxr edə bilər. Regionların inkişafının daim diqqət mərkəzində saxlanıldığını, keçən il 30-dan çox rayona səfər edərək verilən tapşırıqların icrası ilə yerində tanış olduğunu deyən cənab İlham Əliyev bölgələrdə yeni müəssisələrin açıldığını və 177 mini daimi olmaqla 221 min yeni iş yerlərinin yaradıldığını, işsizliyin 5 faiz, yoxsulluğun isə 5,4 faiz səviyyəsində qərarlaşdığını diqqətə çatdırmışdır.

İnfrastruktur layihələrinin icrasının da diqqət mərkəzində saxlanıldığını deyən dövlət başçısı elektrik təchizatının yaxşılaşdırıldığını, yeni yarımstansiyaların işə düşdüyünü, bölgələrdə qazlaşdırılma işlərinin sürətlə aparıldığını qeyd etmiş, kənd təsərrüfatının inkişafı üçün önəmli tədbirlərin görüldüyünü bildirmişdir. Bundan əlavə, keçən il 1300 kilometr avtomobil yolunun, o cümlədən 500-dən çox kəndə yeni yolların çəkildiyini, içməli su layihələrinin icra edildiyini, 133 məktəb və 30 tibb müəssisəsinin tikildiyini və ya əsaslı təmir olunduğunu, 2 olimpiya-idman kompleksinin istifadəyə verildiyini demişdir.

Məcburi köçkünlərlə bağlı məsələlərin də həllini tapdığını, 2300 ailənin yeni mənzillərə köçürüldüyünü qeyd edən dövlət başçısı Cocuq Mərcanlının bərpasını tarixi nailiyyət adlandırmış, Şıxarx qəsəbəsində aparılan quruculuq işlərinin əhəmiyyətindən danışmışdır.

Çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev bu münaqişənin yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmasının vacibliyini vurğulamış, Azərbaycanın mövqeyinin ədalətli və beynəlxalq hüquqa əsaslandığını bildirmişdir. Qeyd etmişdir ki, bunu Dağlıq Qarabağda keçirilən dırnaqarası referendumun beynəlxalq ictimaiyyət və təşkilatlar tərəfindən tanınmaması ilə bağlı verilən bəyanatlar da təsdiqləyir. “Dünya birliyi Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz ərazisi kimi tanıyır” deyən dövlət başçısı bildirmişdir ki, bu, Avropa İttifaqının Şərq Tərəfdaşlığı sammitinin yekun bəyannaməsində də əksini tapmışdır. Azərbaycanın hərbi gücünün artdığını, beynəlxalq reytinqə görə ordumuzun dünyanın ən güclü ordularından biri olduğunu deyən Prezident İlham Əliyev növbəti illərdə də bu sahədə tədbirlərin görüləcəyini, yeni silahların alınacağını bildirmişdir. Dövlət başçısı “Azəri-Çıraq-Günəşli” yataqlarının işlənməsini nəzərdə tutan müqavilənin 2050-ci ilə qədər uzadılmasının əhəmiyyətindən danışmış, Cənub Qaz Dəhlizinin icrasının uğurla təmin edildiyini, “Şahdəniz-2” layhəsinin icrasının 99 faizə, çatdığını, Cənubi Qafqaz kəmərinin 93 faiz, TANAP layhəsinin 90 faiz icra edildiyini, TAP layhəsi üzrə işlərin cədvəl üzrə getdiyini vurğulamışdır. Açılışı ötən il olan Bakı-Tbilisi-Qars dəmir yolunun Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirdiyini deyən Prezident cənab İlham Əliyev artıq bir neçə ölkənin bu layihəyə qoşulmaqla bağlı müraciət etdiyini bildirmiş, Şimal-Cənub nəqliyyat dəhlizinin icrası istiqamətində də önəmli addımların atıldığını, İran sərhədinə qədər dəmiryolunun tikintisinin təmin edildiyini söyləmişdir.



Qəbələ şəhərindən bir görünüş.

Ötən il baş verən önəmli hadisələr sırasında Azərbaycanda keçirilən İslam Həmrəyliyi Oyunlarını qeyd edən cənab İlham Əliyev idmançılarımızın komanda hesabında birinci yerə çıxdıqlarını, 2017-ci ilin «İslam Həmrəyliyi İli» elan olunması ilə bağlı qərarın bizim bir daha öz tarixi köklərimizə bağlılığımızı göstərdiyini qeyd etmiş və 2018-ci ilin də ölkəmiz üçün uğurlu olacağına əminliyini bildirmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2017-ci il bütün ölkədə olduğu kimi, Qəbələ rayonunun da ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında əlamətdar olmuşdur.

Ötən il ərzində iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 220.924 min manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı rayon üzrə 17.188 min manat, yaxud 8,4 % artmışdır. 2016-cı ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı sənayedə 7.771 min manat, yaxud 29,9 %, kənd təsərrüfatında 2.007 min manat, yaxud 3,0 %, nəqliyyatda 181,0 min manat, yaxud 4,9 %, ticarətdə 4.560,0 min manat, yaxud 16,5 %, rabitədə 51,0 min manat, yaxud 4,8 %, tikintidə 2618,0 min manat, yaxud 3,3 % artmışdır.



Qəbələ Chenot Palace Health Wellness Hoteli.

(Ardı 3-cü səhifədə).